**Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 4 oktyabr tarixli, 637 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin və onları verən icra hakimiyyəti orqanlarının Siyahısı"na əlavələr və dəyişikliklər edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

1. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 4 oktyabr tarixli, 637 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin və onları verən icra hakimiyyəti orqanlarının Siyahısı"na aşağıdakı məzmunda 75-76-ci bəndlər əlavə edilsin:

"75. İstehsalat tullantılarının emalı və yerləşdirilməsi

Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi

76. Məişət tullantılarının emalı və yerləşdirilməsi

Yerli icra hakimiyyəti orqanları".

2. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 10 avqust tarixli, 178 nömrəli Fərmanının 2-ci bəndində "66-cı və 67-ci bəndlər" sözləri; "66, 67" rəqəmləri uyğun olaraq "67-ci və 68-ci bəndlər" sözləri və "67, 68" rəqəmləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

bu Fərmanın birinci bəndində göstərilən fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarını iki ay müddətində hazırlayıb təsdiq etsin;

bu Fərmanın icrasını təmin edən digər məsələləri həll etsin.

4. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**Bakı şəhəri, 1 iyul 2000-ci il**

**№ 358**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu $g 2000.- 31 iyul, № 7.- S. 2878.**